# Sözün sərhədləri vicdandan keçir

*(Əvvəli 3-cü səh.)*

yaxın vaxtlarda Anarın "Ağ qoç, qara qoç" povestini, Afaq Məsudun hekayələrini çap etmişik. Gənc yazıçı Elçin Hüseynbəylinin əsərlərini maraqla qarşılayırıq. Bizim ədəbi əlaqələrimiz həmişə olub, hesab edirəm ki, bundan sonra da uğurla davam edəcək."

Gürcüstan Yazıçılar Birliyinin sədri **Maqvala Qonaşvili** yubiley mərasimində çıxış edərək dedi: "Gürcü və Azərbaycan xalqı həmişə bir yerdə olub, şair və yazıçılarımızın ədəbi əlaqələrinin qədim tarixi var. Dövlətlərimiz arasında həmişə anlaşma və dostluq hökm sürüb. Mən Azərbaycanı həmişə özümə ikinci vətən hesab etmişəm. Azərbaycan Yazıçılar Birliyinin yubileyi həm də bizim bayramımızdı."



Qırğızıstan Yazıçılar Birliyinin sədri **Omar Sultanov** Azərbaycan yazıçılarının yaradıcılıq uğurlarını diqqətlə izlədiyini dedi. "Bugünkü bayram həm də oxucuların bayramıdı. Biz bu gün Nizami Muzeyində, Yazıçılar Birliyində olduq. Azərbaycan dövlətinin mədəniyyətə, ədəbiyyata olan diqqətini bir daha gördük".



Türkiyə Yazarlar Sindikatının sədri **Ənvər Ercan** çıxışında dedi: "Burada Anar bəy Yazıçılar Birliyinin sıxıntılı illərindən danışdı. Mən onu qəlbən başa düşürəm. Ona görə ki, bu dövr Türkiyədə də yaşanıb. Bugünkü mərasimdə deyilənlər və müşahidələrim əsasında fərəhlə vurğulayıram ki, Azərbaycanda ədəbiyyata, sözə istər dövlət, istərsə də ictimaiyyət baxımından böyük diqqət, önəmli maraq var. Ədəbi söz əsrlərlə bizim mənəvi birliyimizi qoruyub, bu gün də qorumaqdadı".



Rusiya Yazıçılar İttifaqının sədr müavini **Lola Zvanoryova** mərasimdə çıxış edərək dedi: "Ömrümün son iyirmi ilində Azərbaycan ədəbiyyatıyla sıx əlaqə saxlamışam. Deyim ki, Sovetlər Birliyi zamanında da bu əlaqələr var idi. O zaman mənim tərcüməmdə Azərbaycan şairi Akif Əhmədgilin şeirləri "Drujba narodov" jurnalında işıq üzü görmüşdü. Moskvada kursda olarkən Yuri Kuznitsovdan qrupundakı istedadlı gəncləri soruşdum. O, azərbaycanlı yazar Qoca Xalidin adını çəkdi. Mən onun kitabına ön söz yazdım. Kayseridə mühazidə oxuduğum günlərdə isə orada Azərbaycan ədəbiyyatına necə böyük maraq olduğunu gördüm. Fikrimcə güclü ədəbiyyat yaratmaq üçün güclü bəşəriliyə varmaq lazımdı. Azərbaycan yazıçıları bu hissə malikdirlər".





Türkiyə Yazarlar və Sənətçilər Vəqfi adından yubiley iştirakçılarını salamlayan **Yəhya Akengin** dedi: "Bütün zamanlarda ədəbiyyatın yolu ağır olub, böyük sənətkarlara qarşı müxalifətdə dayananlar ədəbi haqları hər yerdə eyni cür danmağa çalışıblar. Ancaq zaman kontekstində görülən işləri dəyərləndirmək anı gələndə hər şey yerbəyer olur. Bu prosesdə xaos da, inkişaf da paralel yol gedir. Azərbaycan Yazıçılar Birliyinin 75 illik yubileyində deyilənlər, bizim gördüklərimiz sübut edir ki, yaşamağa və yaratmağa dəyər".

*Yubiley mərasimini xalq yazıçısı Elçin yekunlaşdırdı.*

Dekabrın 14-də AYB-nin Natəvan klubunda Azərbaycan Yazıçılar Birliyinin, onun ədəbi orqanı "Ədəbiyyat qəzeti"nin 75 illik yubileyinə və "Sərhədsiz söz" III Beynəlxalq Yazıçılar Forumunun Bakı toplantısına həsr olunmuş mətbuat konfransı keçirildi. Tədbirdə vurğulandı ki, Azərbaycan Yazıçılar Birliyinin və onun ədəbi orqanı "Ədəbiyyat qəzeti"nin 75 illik yubileyi Azərbaycan Respublikası Prezidentinin 18 may 2009-cu il tarixli sərəncamına əsasən dövlət səviyyəsində qeyd edilir. Bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi, yubiley tədbirlərinə hazırlıq, Yazıçılar Birliyinin fəaliyyəti dövründə Birliyə rəhbərlik etmiş yazıçı və şairlərin, ədəbiyyatımızı zənginləşdirən qələm sahiblərinin həyat və fəaliyyəti haqqında dərgilər, AYB-nin saytına yeni İnternet portalının hazırlanması və sair vəzifələr artıq öz həllini tapmışdır. Çox əhəmiyyətli hadisədir



ki, bu yubiley ərəfəsində "Sərhədsiz söz" III Beynəlxalq Yazıçılar forumu Bakıda keçirilir".

Məlumat verildi ki, dünyanın otuza yaxın ölkəsinin tanınmış ədəbiyyat nümayəndələri bu toplantıda təmsil olunur.

Yazıçılar Birliyinin, ədəbi orqanların, seksiya rəhbərlərinin iştirak etdiyi mətbuat konfransında çıxış edən xalq yazıçısı, AYB-nin sədri Anar media nümayəndələrinə Yazıçılar Birliyinin, onun ədəbi orqanı "Ədəbiyyat qəzeti"nin 75 illik yubileyi və "Sərhədsiz söz" III Beynəlxalq Yazıçılar forumunun Bakı toplantısının açılış mərasimilə bağlı dekabrın 15-16-da keçiriləcək tədbirlər haqqında ətraflı məlumat verdi. Qeyd etdi ki, bir neçə il bundan əvvəl İstanbulda olarkən Ukrayna Yazıçılar Birliyinin sədri Yavorivski ilə qərara gəldik ki, belə bir təşkilat - "Sərhədsiz söz" Beynəlxalq Yazıçılar forumu yaradaq. İlk iki toplantı Ukraynada düzənləndi. Sonra mən təklif etdim ki, üçüncü konfrans Bakıda keçirilsin. Azərbaycan Prezidenti mənim bu təkliflə bağlı müraciətimi müsbət qiymətləndirdi. Qərara alındı ki, konfrans Yazıçılar Birliyinin yetmiş beş illik yubileyi ərəfəsində keçirilsin...

Sonra media nümayəndələrinin, şair və yazıçıların AYB, onun orqanı "Ədəbiyyat qəzeti"nin 75 illik yubileyi, "Sərhədsiz söz" III Beynəlxalq Yazıçılar forumunun Bakı toplantısının yaranma səbəblərilə bağlı sualları cavablandırıldı.

Xalq yazıçısı Anar nəzərə çatdırdı ki, ölkəmizin taleyüklü məsələlərində Azərbaycan yazıçıları öz mövqeyini həmişə kəskinliklə, qətiyyətlə ortaya qoyub: "Qarabağ məsələsi bədnam qonşularımız tərəfindən gündəmə gətiriləndə də ilk etiraz bildirən Yazıçılar Birliyi olub, xalq hərəkatının ilk yolu da Yazıçılar Birliyindən keçib, yurd-yuvasından didərgin salınmış qaçqın və məcburi köçkünlərin ilk üz tutduqları yer də Yazıçılar Birliyi olub. O zaman siyasi partiyalar yox idi. İnsanlar öz problemlərinin həlli üçün daha çox Yazıçılar Birliyinə müraciət edirdi. Sovet dövlət rəhbərlərinin ermənipərəst siyasətinə qarşı o zaman etiraz edənlərin sırasında Azərbaycan yazıçılarının da öndə görünən yeri var".

Xalq yazıçısı onu da nəzərə çatdırdı ki, həmin vaxt Yazıçılar Birliyi ağır günlər yaşadı. Lakin öz fəaliyyətini dayandırmadı. Ümummilli lider Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıdandan sonra Birlik yeni çiçəklənmə dövrünü yaşamağa başladı. Məhz Heydər Əliyevin yüksək qayğısı nəticəsində ədəbi orqanlar nəşr olunmağa başladı: "Yazıçılar Birliyinə, ədəbiyyatımızın inkişafına dövlət qayğısı bu gün də yüksək səviyyədə davam edir..."

***

Həmin gün Park İNN otelində "Sərhədsiz söz" Beynəlxalq forumunun Bakı müşavirəsi öz işinə başladı. Müşavirəni Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar açaraq tədbir iştirakçılarını salamladı. Sonra Azərbaycan Yazıçılar Birliyinin struktur özəlliklərini, fəaliyyət istiqamətlərini əks etdirən portal təqdim edildi.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev müşavirədə çıxış edərək dedi: "Azərbaycan ədəbiyyatının mədəniyyətinin tarixi çox qədim və zəngindir. Bu ənənə hazırkı şəraitdə də layiqincə davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyev dünya ədəbiyyatı nümunələrinin çağdaş və gələcək nəslə çatdırılması üçün böyük işlər görür. Cənab Prezidentin sərəncamı ilə dünya ədəbiyyatının ən yaxşı nümunələri Azərbaycan dilinə tərcümə edilərək nəşr olunur. Klassiklərimizin əsərlərinin latın qrafikalı Azərbaycan əlifbasıyla nəşr edilərək dövlət kitabxanalarına hədiyyə edilməsi bu sıradandır. Bu istiqamətdə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi də xeyli iş görüb. Məqsədimiz ondan ibarətdir ki, Azərbaycan ədəbiyyatı daha geniş təbliğ olunsun, dünya xalqlarının dilinə tərcümə edilsin. Ədəbiyyatımızın gözəl nümunələrilə təkcə azərbaycanlı oxucuların yox, dünya oxucularının da geniş şəkildə tanış olması hər birimizin böyük istəyidi. Bizdə kifayət qədər istedadlı qələm adamları var. Ümid edirəm ki, onların ədəbi uğurları və təbliği sayəsində köklü ənənələrə malik Azərbaycan ədəbiyyatı ölkə sınırlarını daha intensiv olaraq aşacaq. Biz bu istiqamətdə imkan daxilində olan bütün işləri görməyə hazırıq. Azərbaycan Prezidentinin yaradıcı insanlara, yaradıcılıq təşkilatlarına göstərdiyi diqqət bizə imkan verir ki, ədəbiyyatımızın, mədəniyyətimizin inkişafına daha böyük töhfələr verək. Azərbaycanın iqtisadiyyatı durmadan güclənir və hesab edirəm ki, bu inkişaf ədəbiyyatımızın inkişafına da böyük üfüqlər açacaq.

Türkiyəli sənətçi Ataol Bəhramoğlu müşavirədə çıxış edərək dedi: "Bakıya, Azərbaycana hər gəlişimdə özümü ata yurdumda olurmuş kimi hiss edirəm, sanki çocuqluğuma qayıdıram. Babam illər öncəsi bu yerlərdən köçüb gedib. Mən Azərbaycana ilk dəfə 1970-ci ildə gəlmişəm. O gəlişim zamanı dəyərli arkadaşım Anarla tanış oldum. Ustad Rəsul Rzanın "Barış" şerini Türkiyədə nəşr etdirdim. Həmin vaxtdan Azərbaycana hər gəlişimi türkçülüyümüzün kökünə qayıdış kimi qəbul edirəm. Bu gün Azərbaycan bir tərəfdən modernləşir, digər tərəfdən qədimliyini, qudsallığını hifz edir, qoruyur. Bu, böyük örnəkdi. Burada olarkən dahi Azərbaycan şairləri Nizaminin, Füzulinin abidələri önündə dayandım, onların əsərlərindən nümunələr həkk edilmiş qaya parçalarına nəzər yetirdim. Daş üzərindəki bu yazılar əbədi bir mənəviyyat qaynağı kimi adamı çəkir. Təəssüf edirəm ki, bu gün Türkiyənin özündə belə gənc nəsil klassiklərimizi öyrənməyə biganədilər. Yaxın günlərdə gənclərdən bir çoxundan Namiq Kamalı necə tanıdıqlarını sordum. Cavabları məni məyus etdi. Halbuki Namiq Kamal bir sənətçi olaraq Atatürkün fikirlərini istiqamətləndirən böyük şəxsiyyətlərdən biri olmuşdur. Bu baxımdan ədəbi ilişgilərə yönəli tədbirlərin mütəmadi olaraq keçirilməsini yüksək dəyərləndirirəm. Biz bir-birimizi tanımalı və tanıtmalıyıq".

Rusiyalı ədəbiyyatşünas Lyudmila Lavrova da öz çıxışında ədəbi əlaqələrin xalqların yaxınlaşmasında böyük rol oynadığını önə çəkdi: "Sovetlər dönəmi süqut edəndən sonra ilk anlar mən elə düşündüm ki, artıq bütün ilişgilər, əlaqələr itmək üzrədir. Mən bu əlaqələrin qırılmasını heç cür qəbul edə bilmirdim. İndiki halda ədəbi-mədəni əlaqələrin belə qurulması, inkişaf etməsi məni sevindirir. Siyasi ilişgilərdən başqa bizi bir çox mənəvi bağlar bağlayır. Mən bu gün Azərbaycan Yazıçılar Birliyinə, onun rəhbərliyinə öz minnətdarlığımı bildirmək istəyirəm. Zamanın o zor durumlarında, ağır keçid dövründə sizlərin sayəsində mədəniyyətlərin, ədəbiyyatların sərhəd tanımadığının bir daha şahidi oldum. Biz bu gün burada Azərbaycan Yazıçılar Birliyinin 75 illiyini böyük duyğularla birlikdə qutlayırıq. Birlik çox önəmli bir məfhumdu. Çünki birlik olan yerdə mədəniyyətlər yaxınlaşır. Bizim mədəniyyət, kültür bağlılığımızın kökü çox qədimdir. 2001-ci ildə Azərbaycanın dahi oğlu Heydər Əliyevin iştirakıyla Moskvada böyük Azərbaycan şairi Nizami Gəncəvinin, sonra Azərbaycanda Puşkinin abidələrinin açılışı bu tarixi bağların təməlini daha da möhkəmləndirdi. Son vaxtlar Moskvada Anarın, Rüstəm İbrahimbəyovun, Kamal Abdullayevin, Çingiz Abdullayevin və başqa tanınmış Azərbaycan yazıçılarının kitabları işıq üzü görüb. Rusiyada bir çox Azərbaycan yazıçıları yaxşı tanınır, onların əsərləri rus dilinə uğurla tərcümə edilib. Son vaxtlar tərcümə sahəsində müəyyən irəliləyişlər hiss olunmaqdadı. Mən Səyavuş Məmmədzadənin bu sahədəki xidmətini xüsusilə qeyd etmək istəyirəm. İndi Moskva Dövlət Universitetinin əcnəbi dillər fakültəsində Azərbaycan şöbəsi fəaliyyət göstərir. Ümid edirəm ki, tezliklə bu sahədəki zəhmət öz bəhrəsini verəcək. Anar müəllim, mən xalqlarımız arasındakı qədim dostluq əlaqələrinin qorunması istiqamətində görülən işlərə görə sizlərə böyük təşəkkürümü çatdırmaq istəyirəm. Ömür əbədi deyil. Ancaq əminəm ki, haçansa biz dünyadan köçsək, qurduğumuz ilişgilər, əlaqələr əbədi olaraq qalacaq, gələcəyə xidmət edəcək".

Millət vəkili, yazıçı-publisist Elmira Axundova müşavirədə çıxış edərək vurğuladı ki, sovet dönəmində Azərbaycan yazıçılarının əsərləri əcnəbi ölkələrə daha çox rus dili vasitəsilə ayaq açırdı. Baş verən ictimai dəyişmələr ədəbi-mədəni əlaqələrin gəlişmələrində də özünü büruzə verdi. Geriləmələr oldu. Ancaq bu durum artıq geridə qalmaqdadı. Artıq Azərbaycan yazıçılarının əsərləri dünya çapına yol açır. Azərbaycan yazıçıları İnternet sayəsində əsərlərini başqa ölkələrdə nəşr etdirirlər: "Keçmiş ədəbi əlaqələrin sistemliliyi sanki mənim yaddaşımda üsyan qaldırır. Biz o əlaqələri bərpa etməliyik, o mədəniyyət, ədəbiyyat ongünlüklərinin özəlliklərini yaşatmalıyıq. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi bu sahədə önəmli işlər görür. Əlaqələrimiz yeniləşir. Bu gün mədəniyyət kosmik mühiti əhatə etmək gücündədi. Biz get-gedə yaxınlaşır və anlaşırıq..."

Türkiyəli yazar Yəhya Akengin sərhədsiz sözün üfüqlərinin genişlənməsinə olan mənəvi ehtiyacdan söz açdı: "Görkəmli türk yazarlarından biri deyib ki, bir millət vətənini qoruya bilməsə, ancaq əvəzində dilini qorusa mütləq düşməni yerinə oturdub, vətənini azad edəcək, azadlığını əldən verib, ancaq dilini qorusa, yenə də öz azadlığına qovuşacaq. Lakin dilini itirsə, o millət əbədi məhvə məhkumdu.

Danılmaz faktdır ki, Azərbaycan ədəbiyyatının, Azərbaycan ədəbi dilinin bugünkü duruma gəlib çıxmasında bu gün yaranmasının 75 illiyini qeyd etdiyimiz Azərbaycan Yazıçılar Birliyinin böyük rolu olub. Sözün sultanlığı haqqında çox deyilib. Böyük Yunis İmrə "Söz var kəsdirər başı, söz var kəsər savaşı" deyirdi. Mən 75 yaşını qeyd edən Azərbaycan Yazıçılar Birliyinə söz, dil, millət qoruyuculuğu yolunda daha böyük uğurlar diləyirəm..."

Mərasimə qatılan "Drujba narodov" jurnalının baş redaktoru Aleksandr Ebonaidze dedi: "Burada çıxış edənlər doğru olaraq qeyd etdilər ki, söz sərhəd tanımır. Söz ölkələri bir-birilə danışdırır, yaxınlaşdırır. Rəhbərlik etdiyim jurnalın imkanı var ki, sözün millətləri bir-birinə yaxınlaşdırmasına yardımçı olaq. Yaxın günlərdə bizim basım evimiz Azərbaycanın üç yazarının kitabını nəşr edib. Bu cür əlaqələrin əhəmiyyəti böyükdür. Çalışacağıq ki, Azərbaycan yazıçılarıyla əlaqələrimizi daha da genişləndirək."

AMEA-nın müxbir üzvü, millət vəkili Rafael Hüseynov da öz çıxışında sərhədsiz sözün imkanlarından bəhs etdi: "Söz insana bağışlanmış ən böyük nemətdir. İnsanı bütün canlılardan üstün edən nemət. Və söz sərhəd içində doğulur.

Sözün ilk sərhədi övladı olduğu dilin qaydaları, qanunları, gözəllik tələbləridir.

Söz, istedadla qovuşanda, Allahın yalnız ən seçkin insanlara bağışladığı hüdud tanımayan, ucu-bucağı olmayan ilhamla birləşəndə sərhədsiz olmaq imkanı qazanır.

Amma sərhədsiz söz yarada bilməkçün istedad hələ azdır.

Bəs sərhədsiz sözün sərhədi haradan başlanır?

Bu sualın cavabı yüzillər öncə verildiyindən təzə cavablar axtarmaqdansa, o etibarlı, vaxtın sınağından çıxmış cavab düsturları yada salmaq yetər.

Səkkiz əsr öncə dahi Nizami Gəncəvi sözünün sərhədsizliyinə inanırdı, amma bu hüdudu vur-tut bir əsr təxmin edirdi.

*Yüz il sonra sorsan bəs o hardadır?*
*Hər beyti səslənər: "Burda, burdadır!".*

Nizaminin ümid etdiyi o yüzildən biri yox, səkkizi keçdi və yenə ustadın hər beyti "o burdadır, o burdadır" - deyir.

Digər bir dahimiz Məhəmməd Füzuli Nizamidən üç əsr sonra sələfi kimi sözunun sərhədsizliyinə əmin idi və sözünün asta-asta hər yeri tutacağına arxayın inamla belə yazırdı:

*Hər sözüm bir pəhlivandır kim bulud*
*təyid-i həqq*
*Əzm qıldıqda tutar təcrid ilə bəhrü bəri.*

Nizami beş məsnəvidən ibarət "Xəmsə" yaradıb və səkkiz əsr boyunca Yaxın və Orta Şərqin, Şimali Hindistan və Pakistanın onlarca xalqının yüzlərlə istedadlı təmsilçisi o poemalara cavab yazıb, özünü Nizaminin şagirdi saymaqla fəxr duyub, bu irs Avropa ölkələrinin bir sıra klassiklərinin də yaradıcılığına öz etiraf etdikləri kimi əhəmiyyətli təsir göstərib.

Nizami sözü Şərq və Qərbin onlarca dilinə çevrilib, bu gün ingiliscə, fransızca, almanca, italyanca, ispanca, yaponca, hindcə, çincə, macarca, rumınca səslənməkdədir.

Nizami sözü nə dil, nə ərazi sərhədləri tanıyır.

Nizaminin adı hətta Yer kürəsinin sərhədini də aşmış, səmadakı kiçik planetlərdən birinə ünvan olmuşdur.

Füzulinin də sözünün sərhəd tanıymayacağı haqda gümanı çin çıxmış, onun da şeri ölkə-ölkə gəzmiş, dörd əsr boyunca Azərbaycanda, İranda, Türkiyədə, İraqda, Orta Asiyada minlərcə şairi onun sözünün tilsimində və təsirində qalmağa, bu şeirləri ülgü hesab edərək onlara cavablar yazmağa sövq etmişdir.

Lakin sözü sərhədsiz olan, sözün sərhədsizliyinə də inanan Nizami ilə Füzuli sözün sərhədi olduğunu da təsdiqləmiş, məhz sərhədsiz söz sahibi olmaqçün sözün onların bəyan etdiyi sərhədlərinə hörmətlə yanaşmağı tövsiyə və təşviq etmişlər.

Nizaminin ilk şərti belə idi: Öz sözünün birinci sərhədçisi özün ol, öz sözünə qarşı ən sərt tənqidi özün yönəlt:

*Sözünə düşmənin gözlərilə bax,*
*Onda yaxşı-pisi görərsən ancaq.*

Forma kamilliyinə nəzarət et, şəklin tələb etdiyi cızıqdan qırağa çıxma:

*On naxış vursa da bir nəqqaş əgər,*
*Əsas bir cizgidən sanma əl çəkər.*
*Bir cizgi naxışdan çıxarsa kənar,*
*Başqa cizgilər də bütün pozular.*

Və ya belə bəyan edirdi:

*Hər sözün xüsusi bir ölçüşü var,*
*Ölçüsüz söylənən söz qulaq yırtar.*

Ənənəni, keçmiş ədəbi mirasın sərhədlərini unutma:

*Yazdığımız sözlər nadir olsa da,*
*Yenə köhnələri salınq yada.*

Tərbiyə, abır pərdəsini saxlamaq da bir sərhəddir ki, Nizami bu həddi qorumağı son dərəcə gərəkli sayırdı:

*Ayıblı sözlərin yazılmasından*
*Yaxşıdır bir dəftər ağ qalsa, inan!*

Daha hansı sərhədə diqqət edirdi Nizami:

*İncitək sözlər seç, az danış, az din,*
*Qoy az sözlərinlə dünya bəzənsin.*
*Az sözün inci tək mənası solmaz,*
*Çox sözün kərpictək qiyməti olmaz.*

Elə bu fikirlə yüzfaizli şərik olaraq Füzuli də deyirdi:

*Gər çox istərsən Füzuli, izzətin,*
*az et sözü,*
*Kim çox olmaqdan qılıbdır çox əzizi*
*xar sözü. -*

Bəs Füzuli sözün hansı digər sərt hüdudlarını, hansı vacib sərhədlərini müəyyənləşdirirdi?

Onun nəzərincə ilk sərhədlərdən biri - doğruluq, sözün həqiqətə xidmət etməsi idi:

*Gözəl yaranmışdır söz əzəl başdan,*
*Düzlükdür ondakı hüsnü artıran.*

Füzuliyə görə bədii sözün ən əsas sərhədlərindən digəri nəciblik, xeyirxahlıqdır:

*Yaxşı söz tərkin etmə kim olmaz,*
*Yaxşı sözdən səvabi çox sədəqə.*

Mərifət, əxlaqi dəyərlərə sayğı Füzulinin qəbul etdiyi zəruri sərhədlərin ən həssaslarındandır:

*Sən ey söz dilbərinə ziynət ü ziyvər*
*verən insan,*
*Libas-i mərifətdən qılma gəl məhrum*
*o canani.*

...XX yüzilin ən parlaq qələm sahiblərindən biri, Nizamini də, Füzulini də pərəstiş dərəcəsində sevmiş Mikayıl Müşfiq sözün gələcəyinə çox nikbin baxırdı:

*(Ardı 5-ci səh.)*

Ədəbiyyat QƏZETİ

# Sözün sərhədləri vicdandan keçir



(Əvvəli 5-ci səh.)

*Meşələrə gedək, ana! -*
*Canavarlar sevər bizi;*
*İnsana yox, tək heyvana*
*Danışarıq dərdimizi!..*
(Tərcümə A.Vəfalınındır)

Bugünkü çıxışlar bir daha təsdiq edir ki, qələmlərin birliyi xalqların dostluğu, birliyi üçün həqiqətən misilsiz kömək göstərmək qüdrətinə malikdir.

***

Sonra tədbir iştirakçıları İçərişəhərdəki Miniatür kitab mərkəzini ziyarət etdilər. Qonaqlar burada nümayiş olunan nəfis tərtibatlı, müxtəlif ölçülü mini kitablarla tanış oldular.

***

Həmin gün tədbir iştirakçıları Müslüm Maqomayev adına Dövlət Filarmaniyasında Beynəlxalq şeir gecəsinə də qatıldılar. Mərasimi xalq şairi, Yazıçılar Birliyinin birinci katibi Fikrət Qoca açaraq tədbir iştirakçılarını salamladı. Vurğuladı ki, bu tədbir Azərbaycan Yazıçılar Birliyinin 75 illiyinə həsr olunub. "Yazıçılar Birliyi həyatın sərt dönəmlərindən, fırtınalı illərindən ləyaqətlə çıxıb. Buna görə də onun yubileyini belə yüksək səviyyədə keçirməyə haqqımız var: Bu dünyada şairin, yazıçının şairdən, yazıçıdan əziz, doğma kimsəsi yoxdu. Səhnəyə hər kəs öz sözüylə çıxır. İndi meydan öz sözü olanlara verilir".

Sonra Ataol Bəhramoğlu, Əli Akbaş, Azərbaycanın xalq şairləri Nəriman Həsənzadə, Zəlimxan Yaqub, Söhrab Tahir, Sabir Rüstəmxanlı, Nəriman Həsənzadə, Gürcüstan Yazıçılar Birliyinin sədri Maqvala Qonaşvili, Əjdər Ol, Yəhya Akengin, İrfan Ciftci, Çingiz Əlioğlu, Ənvər Ercan, İlham Bədəlbəyli, Orxan Aras, İlqar Fəhmi, Nəsib Nəbioğlu, Qismət yeni şeirlərini oxudular. Ukraynanın xalq artisti Larisa Kadırovanın çıxışı da maraqla qarşılandı.

***

Yubiley tədbirləri dekabrın 16-da davam etdirildi. Həmin gün ölkəmizin tanınmış söz adamları və qonaqlar dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi önünə gələrək ölməz xatirəsini gül dəstələrilə yad etdilər. Sonra tədbir iştirakçıları Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinə gəldilər. Burada qonaqlara muzeyin işiylə bağlı ətraflı məlumat verildi.

Həmin gün bayram tədbiri Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda davam etdirildi. Mərasimi AYB-nin sədri Anar açaraq Yazıçılar Birliyinin fəaliyyətilə bağlı məlumat verdi.

Tədbirdə çıxış edən Ukrayna Yazıçılar Birliyinin sədr müavini Vasili Zavqoroni vurğuladı ki, Azərbaycan ədəbiyyatının dünya ədəbiyyatı salnaməsində görünən yeri var, bu ədəbiyyat öz layiqli töhfələrilə dünya ədəbiyyatı tarixini zənginləşdirib."

Ukraynalı şair-tərcüməçi Kristko Xolumenenko Azərbaycanda ədəbi həyatın diri olmasını və tərcümə işinin çağdaş ədəbi əlaqələrinin genişləndirilməsində mühüm rol oynadığını önə çəkdi.

Şair Abbas Abdulla tədbirdə çıxış edərək Azərbaycan-Ukrayna ədəbi əlaqələrinin möhkəmlənməsi yönümündə gördüyü işlərdən qürur duyduğunu vurğuladı: "Ukrayna, rus, gürcü dillərindən orijinaldan etdiyim tərcümələr xalqlarımız arasında ədəbi ilişgilərin möhkəmlənməsinə xidmət etdiyi səbəbində qürur duyuram. Ukraynada mənim tərcüməmdə kitablar, antologiyalar nəşr olunub. Tərcümə işi xüsusi yaradıcılıq qabiliyyəti tələb edir. Bu gün bir çoxları Yazıçılar Birliyinin fəaliyyəti üzərinə kölgə salmaq cəhdi göstərir. Beləələri unudurlar ki, sovetlər dönəminin hər cür basqılarına baxmayaraq, bu qurum və böyük sənətkarlarımız o ağır illərdə dilimizin keşiyində dayanıblar, milli-mənəvi dəyərlərimizi qoruyublar. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov və başqaları türk dili yasaq ediləndə bu dili yaşadıblar.

Bunları böyük qazax şairi, xalqımızın yaxın dostu Oljas Süleymenov tədbirdə çıxış edərək dedi: "Bu gün mən buraya böyük sevgilərlə gəldim. Hamınızı salamlayıram. Yaxşı haldır ki, bir araya gələrək ədəbiyyat haqqında fikirlərimizi bölüşürük. Xarici ölkələrdən gələn ədəbiyyat xadimlərinin bu mərasimə qatılması dostluq ənənələrinin davam etdiyindən xəbər verir. Bu, çox gərəkli bir işdi. Təkcə restoran görüşlərində yox, təkcə iqtisadi sahədə olan anlaşmalarda yox, biz mədəni sahədə də mütəmadi olaraq fikir mübadilələri aparmalıyıq. Bir daha deyirəm ki, belə görüşlərin keçirilməsi vacibdi. Azərbaycan Prezidentinin ədəbiyyatın inkişafına göstərdiyi böyük qayğını mən yüksək dəyərləndirirəm. Burada çıxış edən ukraynalı həmkarım çox düzgün qeyd etdi ki, ədəbiyyatda analiz, tənqid olmasa, oxucu marağı da olmaz. Bunlar hamısı bir-birilə əlaqəlidir. Bu, ədəbiyyatın taleyidir. Ən önəmlisi odur ki, yazılı ədəbiyyat tarixdə qalır. İndi elə texnoloji vasitələr yaranıb ki, dünyanın hər yerindən xəbər verir. Ancaq bu vasitələrin heç biri yazılı ədəbiyyatı əvəz edə bilmir. Bu sahədə əsas iş yazıçının üzərinə düşür. Buna görə də mən belə tədbirlərin, fikir mübadilələrinin keçirilməsini alqışlayıram..."

Rusiyalı yazıçı Aleksandr Ebonaidze çıxışında vurğuladı ki, ədəbi-mədəni əlaqələrin qorunub saxlanılması qələm adamlarının, çağdaş yazıçıların vətəndaşlıq, insanlıq borcudur.

Qazaxıstan Yazıçılar Birliyinin sədri Omar Sultanov hələ 1957-ci ildə keçirilən gənc şairlərin poeziya festivalında böyük Azərbaycan şair və yazıçılarından Rəsul Rza və Mirzə İbrahimovla tanış olduğunu xatırlatdı: "İndi xoşdu ki, gənclik dostlarım Anarla, Fikrət Qocayla yenidən görüşürəm. Bakıda ilk dəfə 62 il öncə olmuşam. Azərbaycanın inkişafı məni valeh etdi. Mən dünya ədəbi prosesini yaxından izləyirəm. Asiya, Avropa ölkələrində, o cümlədən Azərbaycanda və Qırğızıstanda yazıçıların yaradıcılığı daha aktualdı, bugünkü ruhu əks etdirir. Azərbaycan yazıçılarında milli özünüdərk ruhu yüksəkdi, intellektləri böyükdü. Bu cəhət sadə azərbaycanlılara da xas olan əsas cəhətdi".

Sonra çıxışçı əvsanəvi qırğız qəhrəmanı Manasın portretini AYB-nin sədri Anara bağışladı.

Mərakeşli yazar Həsən Bəhrudi çıxışında ölkəsinin ədəbi-mədəni həyatından bəhs etdi: "Mənim ölkəmin ədəbiyyatı vaxtilə təkcə dini ədəbiyyatdan ibarət idi. İndi bu münasibət dəyişib. Müasir ədəbiyyatımız dünya ədəbiyyatına adeptə olunur. İndi bizdə ingilis dilindən əsərlər tərcümə edilir, eyni zamanda öz əsərlərimiz ingilis dilinə çevrilir. İlk milli rolmanlarımız 1950-ci ildən bəri nəşr olunmağa başlayıb. Yeni nəsil artıq universitetlərdə dünya ədəbiyyatı nümunələrilə tanış olmağa başlayıb. Mərakeş ədəbiyyatı oxunmağa başlanıb. Mən Azərbaycanın Mərakeşdəki səfirliyinə minnətdarlıq etmək istəyirəm ki, ədəbi əlaqələrimizin yaranmasında bizə yaxından yardımçı olur".

Rumıniyalı yazıçı Dmitri M.İon çıxışında vurğuladı ki, "Sərhədsiz söz" Beynəlxalq forumunun növbəti toplantısı Bolqarıstanda keçiriləcək.

Hollandiyada yaşayıb-yaradan yazıçı Gülşən Lətifxan çıxışında "Sərhədsiz söz" Beynəlxalq forumunun öz missiyasını daşıdığı adda ehtiva etdiyini önə çəkdi: "Siyasətçilər ölkələrin sərhədlərini nə qədər bölsələr, dəyişdirmək istəsələr də belə, ədəbiyyatçılar bu sahədə birləşdirici iş aparır".

Tədbirdə çıxış edən Dünya Yazarlar Birliyinin İstanbul bölməsinin rəhbəri İrfan Ciftci Azərbaycan Yazıçılar Birliyinin qorunub saxlanmasında qurum rəhbərliyinin, Azərbaycan ziyalılarının əməyini yüksək dəyərləndirdi, dövlət səviyyəsində Birliyin ədəbi orqanlarının dərcinə şərait yaradılmasını alqışladı.

"Dünya ədəbiyyatı" dərgisinin baş redaktoru Səlim Babullaoğlu yeni ədəbiyyatın yaranmasında ədəbi dərgilərin müsbət rolundan danışdı, rəhbərlik etdiyi dərgi vasitəsilə dünya ədəbiyyatının ən gözəl nümunələrini Azərbaycan oxucusuna çatdırmağa çalışdığını vurğuladı: "Bu seriyadan 14 kitab nəşr etmişik və bir çox nəşrlər də nəzərdə tutmuşuq".

Türkiyəli yazarlardan ədəbiyyat araşdırmaçısı Ayşe Atay da mərasimdə çıxış edərək ədəbi əlaqələrin vacibliyindən, sözün cəmiyyətdəki yerindən ətraflı danışdı.

*Hazırladı:*
**Sərvaz HÜSEYNOĞLU**
**Fotolar Dilavər və Yaqubundur**